Elmi Xəbərlər Jurnalı Nömrə 5, 2025 155-159
DOI:10.30546/gdu.5.2025

UOT:81.

# NƏSİMİ POEZİYASINDA HÜRUFİ ANTROPOLOGİYAYA AİD TERMİNLƏR

***f.ü.f.d., dosent Heydərova Xədicə İsabala qızı***
***AMEA Nəsimi adına Dilçilik İnstitutu***
***heyderova73@mail.ru***

**Xülasə:** *Məqalədə İmadəddin Nəsimi poeziyasında hürufi antropologiyaya aid terminlərin işlənmə xüsusiyyətləri araşdırılır. Hürufilik XIV əsrdə Fəzlullah Nəimi tərəfindən formalaşdırılan ezoterik-fəlsəfi təlim kimi Quran ayələrinin, kainatın və insan bədəninin hərf-rəqəm sistemi ilə yozulmasına əsaslanır. Bu kontekstdə hürufi antropologiya insan vücudunu ilahi hikmətin yazısı, hər bir üzvü və xətti isə metafizik mənaların daşıyıcısı kimi qəbul edir. Nəsimi poeziyası bu təlimin ən parlaq ifadələrindən biridir. Onun şeirlərində baş, üz, göz, qaş, saç, dodaq, diş, dil, sinə, ürək, ayaq və digər anatomik terminlər sadəcə bədii obraz yox, həm də kosmik və ilahi semantik strukturların daşıyıcısı kimi çıxış edir. Araşdırmada müəyyən edilmişdir ki, ümumilikdə 51 anatomiya termini işlədilmişdir. Bu terminlərin 50 faizi türk, 26 faizi fars, 24 faizi isə ərəb mənşəlidir. Onların leksik, qrammatik və etimoloji təhlili göstərir ki, şairin dilində insan orqanizmi mikrokosmos, Tanrı isə makrokosmos kimi təsəvvür olunur. Qurani terminlərlə qurulan paralellər bədəni ilahi kitabın metaforasına çevirir. Nəsimi şeirində orqanların planet və bürclərlə assosiasiyası hürufi kosmologiyanın poetik leksikondakı əksini göstərir. Beləliklə, Nəsimi hürufi təlimin əsas sütunlarından biri olan antropoloji bədən modelini poetik dillə inşa etmiş və bu sahədə zəngin lüğəvi sistem yaratmışdır.*

**Açar sözlər:** Nəsimi, hürufilik, hürufi antropologiya, anatomiya terminləri, mikrokosmos, kosmologiya, poetik semantika

**Ключевые слова:** Насими, хуруфизм, хуруфийская антропология, анатомическая терминология, микрокосм, космология, поэтическая семантика

**Keywords:** Nasimi, Hurufism, Hurufi anthropology, anatomical terminology, microcosm, cosmology, poetic semantics

## Giriş

Hürufilik XIV əsrdə Fəzlullah Nəimi tərəfindən yaradılmış ezoterik-fəlsəfi cərəyan olub, Quran ayələrinin, insan bədəninin və kainatın hərf-rəqəm sisteminə əsaslanan şərhinə dayanır. Bu təlimdə hərflər və saylar yalnız qrafik işarələr və ya riyazi vahidlər deyil, ilahi hikmətin, kosmik harmoniyanın və gizli biliklərin açarı kimi qəbul olunurdu. Hürufi düşüncəyə görə, kainat "ilahi kitab"dır və bu kitabın hər bir hərfi həm kosmosda, həm də insan vücudunda əksini tapır. Bu səbəbdən insan orqanizmi makroaləmin mikroskopik modeli, Tanrının varlığının yazıldığı "lövh" kimi təsəvvür edilirdi.

Hürufi antropologiya bu konsepsiyanın əsas sütunlarından biridir. O, insan bədənini yalnız fizioloji varlıq kimi deyil, həm də metafizik məna daşıyıcısı, batini hikmətin təcəllisi kimi izah edir. Bu baxışda hər bir üzv – baş, göz, qaş, dodaq, diş, sinə və s. – həm real funksiyaya, həm də kosmik-sembolik məzmun yükünə malikdir. İnsanın zahiri siması onun daxili mənəvi mahiyyətinin ifadəsi kimi qəbul olunur, üz cizgiləri isə "ilahi kitabın yazısı"na bərabər tutulur.

Nəsimi poeziyası bu nəzəriyyənin ən parlaq ifadə olunduğu mətndir. Şairin yaradıcılığında hürufi antropologiya leksik, qrammatik, etimoloji və poetik sistem üzərində qurulmuş geniş konseptual çərçivəyə malikdir. Nəsimi insan bədənini hərf-rəqəm sisteminə tabe edir, onun bütün üzvlərini ilahi məna daşıyıcısına çevirir və onları Qurani anlayışlarla poetik paralellər vasitəsilə metafizik mətnin hissəsi kimi təqdim edir.

DOI:10.30546/gdu.5.2025

Bu baxımdan V. Çağla Karslı haqlı olaraq qeyd edir ki, “hurufiliyə görə gözəllik mərkəzinin üz olması, ilahi xətlərin üzə işlənmiş olmasındandır. Üzdəki xətlər duyğularla qavranan, amma batini anlam daşıyan simvolik strukturlardır” [1, s. 146]. O. Mirqasımov isə göstərir ki, “insan bədəni hürufi təlimlərdə mikroaləm kimi təsəvvür olunur; onun hər bir orqanı, xətti və şəkli ilahi makroaləmin əksidir. Bu anlayış hürufi antropologiyanın əsasında dayanır və insan üzündəki cizgilərin – alın, qaş, göz və ağızdakı xətlərin – ‘ilahi kitabın yazısı’ kimi yozulmasına səbəb olur” [2, s. 129].

Beləliklə, hürufi antropologiyanın həm nəzəri, həm də poetik əsaslarını Nəsimi poeziyası vasitəsilə müşahidə etmək mümkündür. Bu poeziya yalnız dini-fəlsəfi təlimin bədii təcəssümü deyil, həm də klassik Azərbaycan ədəbiyyatında insanın metafizik və kosmik model kimi təqdim olunmasının ən zəngin nümunəsidir.

**Müzakirə**

Şairin poetikasında bir çox anatomik hürufi terminlər müşahidə edilir: *mizac, üz, vəch, surət, rux, alın, dodaq, ləb, dil, diş, qaş, əbru, zülf, göz, kirpik, ağız* və s.

Qeyd edilməlidir ki, bəzi qurani terminlər (*ayət, surət, Rəhman, rəbbani, kəlamullah* və s.), metaforlar (*bədr, ay, nəsrin, bərgi-nəsrin, qızılgül, xeymə* və s.) Nəsimi şeirində mütləq ilahi kəlamın insan simasında və vücudunda təcəllisi kimi məcazi şəkildə istifadə olunsa da, onlar antropoloji kateqoriyaya daxil deyil, poetik paralellik və bənzətmə vasitələridir.

Hürufilər Məhəmməd peyğəmbərin hədisinə (“Rəbbimi merac gecəsində əmrəd qətət olaraq gördüm”) əsaslanaraq “əmrəd qətət”i ümmül-kitab surəti hesab edirlər: *“Ümmi-xətlər saç, iki kaş, dört kirpik olmaq üzrə 7 xətdir”* [7, s. 138]. *“Fəzlullah isə ümmül kitabın Həvvanın üzündəki xətlərin sayı qədər hərflərdən ibarət Fatihə surəsi olduğunu söyləyir və ümmül-kitabın sahibi hz. Məhəmməddir”* [5, s. 379]. Məhəmməd peyğəmbərin yuxarıda göstərilən hədisi ilə geniş tədqiqatlarımız var [3; 4].

Əbcəd hesabı da hürufi antropologiyanın əsas sütunlarından biri kimi insan bədəninə tətbiq olunurdu. Məsələn, “vücud” sözünün ərəb hərfləri ilə yazılışı (و ج و د) əbcədlə 6 + 3 + 6 + 4 = 19 edir. Bu da bəzi hurufi mənbələrdə 19 sayının ilahi tənasüb rəmzi kimi təqdim olunması ilə əlaqələndirilir. Bənzər şəkildə göz anlamı verən “ayn” = 50 + 10 + 70 – (ع ی ن) 130 kimi dəyərlərlə müəyyən kosmik və quranilaşdirilmiş uyğunluqlar qurulurdu. Hurufilər bu hesablamalardan istifadə edərək bədənin hər bir üzvünü ilahi sistemin parçası kimi izah edirdilər.

*“Vücudum şəhrinin cəlladı dişdir*
*Nə ki loğma sunar, çeynər dəhanım”* [6, II, s. 135]

Bu beyt hürufi təlimin əsas elementlərindən olan bədən üzvlərinin funksional və rəmzi dəyərini əks etdirir. Diş – 32 ədəd olmaqla fars əlifbasının metaforudur. Hürufilər bu dişləri hərflərin daşıyıcısı, dəhanı isə kəlamın çıxış qapısı kimi görürlər. *Loğma* yalnız qida deyil, həm də ilahi hikmətin simvoludur. Diş onu çeynəməklə – yəni zahirdən batinə keçməklə – mənanı açır. Beləcə, “vücud şəhəri”ndə hökmü icra edən “cəllad” məhz hərfləri doğrayaraq mənanı ifadə edən dişdir.

• *Üz / liqa / surət / üzar*: insan simasının bütöv mənzərəsini bildirir. Hürufi mənada mənəvi Kəbə, Rəhman surəti, “üz” Allahın zahiri təcəllası və Quran kəlamının daşıyıcısıdır;

• *Zülf / saç / geysu* Nəsimi yaradıcılığında Məhəmməd peyğəmbər və Quranı assosiativ olaraq simvolizə edir;

• *Dəhan / ağız / ləb / dodaq*: ilahi sözün çıxdığı müqəddəs mərkəzdir;

• *Diş* – 32 hərfin simvolu;

• *Qaş* – merac gecəsinin simvolu. Nəsimin şeirlərində çox zaman *qabü-qövseyn, öv ədna* və *merac* dini terminləri ilə yanaşı işlənir;

DOI:10.30546/gdu.5.2025

• *Kirpik / Göz* – idrak, nuru-kamilin vasitəsidir.

Bu etimoloji qatlar sözlərin yalnız anatomik yox, həm də mənəvi və kosmik anlamlar daşıdığını göstərir.

Nəsimi poeziyasında bəzən bədən üzvləri konkret planetlərlə və bürclərlə assosiasiya edilir. Məsələn: *dalaq* – Zühəl, *öd* – Mərrix, *bağırsaq* – Müştəri, Sünbülə, *göbək* – Mizan, *sinə* – Əsəd, *əmcək* – Sərətan. Bu cür identifikasiyalar həm hürufi kosmologiyanı, həm təbii-təbiblərin semantik və hərfi sistemlərini bir araya gətirir. *"Kimin ki, könlü dilədi ayağını öpmək, başını oynamaq ona müqərrər olmuşdur"* [6, II, s. 144] beyti ayaq orqanının metafizik anlamda ucaldıldığını göstərsə də, *ayaq* bürc və ya planetlərlə assosiasiya olunmur. Baş metaforu burada frazeologizmin tərəfi kimi çıxış edir: "başını oynamaq" ilahi iradəyə təslim olmaq, canını qurban vermək deməkdir.

*"Büruc içrə əyaq Hutü, Həməl – baş,*
*Qəmər həm övkədir, bürcü zəbanım"* [6, II, s. 203]

Bu beyt Nəsiminin hürufi sistemlə astro-tibbi və rəmzi semantikaları sintez etməsinin örnəyidir. Burada qədim astroloji təlimə əsasən bədən üzvləri bürclərlə əlaqələndirilir: *ayaq* – Hut (Balıq), *baş* – Həməl (Qoç), *övkə* (ciyər) – *Qəmər* (Ay) ilə, *zəban* (dil) – Əqrəb bürcünün ulduzu ilə. *Zəban* həm də farsca "dil" mənasında işlənir və burada Nəsimi öz dilini, yəni nitq və kəlamını ilahi ulduz nizamı ilə əlaqələndirir. Bu isə insanın mikrokosmos, Tanrının isə makrokosmos olması prinsipinə söykənir. Hurufi baxışa görə insanın bütün bədən üzvləri ulduzlar, saylar və hərflərlə birbaşa əlaqəli qurulmuşdur.

Tədqiqatımızda Nəsimi yaradıcılığında işlənən 50 anatomiya termini müəyyənləşdirildi. İnsan orqanizmi şairin dilində *mizac* adlanır. Anatomik orqanlar isə aşağıdakılardır:

1) Baş və üzə aid orqan adları (29 ədəd): *baş, sər, (y)üz, göz, ariz, vəch, liqa, surət, rüx, rüxsar, yanağ, üzar, alın, dodaq, ləb, dil , diş, qaş, qulaq, guş, əbru, saç, zülf, geysu, kirpik, ağız, dəhan, dimağ.*

2) Gövdə orqan adları (17 ədəd): *cigər, dil (farsca: ürək), (y)ürək, qəlb, öd, boy, tən, bədən, vücud, dalaq, bağırsaq, sinə, bağır, göbək, əmcək, həbli-varid, damar.*

3) Aşağı və yuxarı ətraf orqan adları (3 ədəd): *əl, ayaq, pa(y) (farsca: ayaq).*

4) Mücərrəd anlayışlı orqan adı, ruhun yerləşdiyi yer (2 ədəd): *könül.*

Araşdırmalar nəticəsində məlum oldu ki, Nəsimi yaradıcılığında dini-təsəvvüfi terminlər, əsasən, ərəb və fars mənşəli olsa da, anatomik orqan adlarının çoxu məhz Azərbaycan-türk kökənlidir. Belə ki, 50 termindən 25-i Azərbaycan-türk ( *(y)üz, ağız, alın, ayaq, baş, boy, bağır, bağırsaq, dalaq, damar, dodaq, dil, diş, əl, əmcək, göbək, göz, kirpik, könül, qaş, qulaq, (y)ürək, öd, saç, yanağ*), 13-ü fars (*cigər, sinə, dil, sər, ləb, rüxsar, rüx, guş, zülf, geysu, tən, pa(y), dəhan*), 12-i ərəb (*bədən, dimağ, vücud, qəlb, həbli-vərid, ariz, mizac, vəch, liqa, surət, əbru, üzar*) mənşəlidir. Leksik-qrammatik baxımdan bütün anatomik terminlər leksik yolla əmələ gəlmişdir. Yalnız ərəb mənşəli *həbli-vərid* sintaktik yolla yaranan anatomik termindir.

**Nəticə**

Aparılan araşdırma göstərir ki, İmadəddin Nəsimi poeziyası hürufi antropologiyanın zəngin və çoxşaxəli poetik modelini özündə ehtiva edir. Şairin poetik dünyasında insan orqanizmi yalnız bioloji varlıq deyil, həm də ilahi hikmətin yazıldığı metafizik mətn, "mikrokosmos"un canlı nümunəsi kimi təqdim olunur. Bu baxış hürufi təlimin əsas prinsiplərinə uyğun olaraq insan bədənini hərf-rəqəm sisteminə tabe edir və hər bir üzvü sakral semantikanın daşıyıcısına çevirir.

Tədqiqat nəticəsində müəyyən edilmişdir ki, Nəsiminin poeziyasında 51 anatomiya termini işlədilmişdir. Onların 25-i (50%) türk, 13-ü (26%) fars, 12-si (24%) ərəb mənşəli

DOI:10.30546/gdu.5.2025

sözlərdir. Bu fakt Nəsiminin hürufi sistemdə bədəni təsvir edərkən əsasən türk köklü leksikaya üstünlük verdiyini, lakin ərəb və fars mənşəli terminləri də poetik kontekstdə semantik cəhətdən zənginləşdirdiyini göstərir. Bütün terminlər leksik yolla formalaşmış, yalnız "həbli-vərid" ifadəsi sintaktik üsulla yaranmışdır ki, bu da söz yaradıcılığının spesifik nümunəsi kimi diqqətəlayiqdir.

Nəsimi poeziyasında *üz, göz, qaş, saç, dodaq, dil, diş* kimi üzvlər həm anatomik, həm də kosmik-mistik dəyərə malikdir. Onların bürclərlə və planetlərlə assosiasiyası qədim astroloji ənənələrin və islam-tibb təlimlərinin hürufi sistemdə sintez olunduğunu təsdiqləyir. Qurani terminlərlə qurulan poetik paralellər isə bədəni ilahi kitabın metaforasına çevirir. Beləliklə, insan vücudu zahirdə maddi varlıq, batində isə Allahın sözünün daşıyıcısı kimi təqdim olunur.

Əldə edilən nəticələr sübut edir ki, Nəsimi hürufi təlimin poetik-estetik əsaslarını təkcə fəlsəfi baxımdan deyil, həm də leksik-semantik müstəvidə inkişaf etdirən böyük sənətkardır. Onun poeziyasında anatomiya terminlərinin sistemli şəkildə işlədilməsi hürufi antropologiyanın yalnız dini-fəlsəfi ideya deyil, həm də bədii söz vasitəsilə formalaşmış xüsusi poetik model olduğunu göstərir. Bu, Nəsimi yaradıcılığının həm Azərbaycan ədəbi dilinin inkişafında, həm də orta əsr İslam mistik poeziyasında unikal yer tutduğunu bir daha təsdiqləyir.

**_Ədəbiyyat_**

1. Karslı, V. Ç. (2014). Hurufilik ve Sûfî Estetik: Nesîmî Örneği. İstanbul: İnsan Yayınları, 232 s.
2. Mir Qasımov, O. (2015). Words of Power: Hurufi Teachings between Shiʿism and Sufism in Medieval Islam. Leiden: Brill, 592 p.
3. Heydarova, Kh. Lexical Units Reflecting Anthropomorphism in Nasimi's Religious and Philosophical Views. // World Science. 17. Warsaw: Dolna. Available at: https://doi.org/10.31435/ws.4(86).2024.3242
4. Fi-surati-shabi-qatat: Поэтическое толкование хуруфийского антропоморфизма у Насими. «XXI asr tılshunoslıgı: tahlil va talqin». "Lıngulstıcs of the XXI century: analysis and interpretation". Özbəkistan Avgust, 2025 No 3, Vol. 2 20332 işarə, səh. 5-12
5. Nəsimi, İ. (2021). Seçilmiş əsərləri. I cild. Tərt.ed.: H.Araslı. Bakı: Şərq-Qərb nəşriyyatı, 336 s.
6. Nəsimi, İ. (2021). Seçilmiş əsərləri. II cild. Tərt.ed.: H.Araslı. Bakı: Şərq-Qərb nəşriyyatı, 376 s.
7. Usluer, F. (2009). Hurufilik: İlk Elden Kaynaklarla Doğuşundan İtibaren. İstanbul: Kabalcı Yayınevi, 626 s.

## ТЕРМИНЫ, ОТНОСЯЩИЕСЯ К ХУРУФИЙСКОЙ АНТРОПОЛОГИИ В ПОЭЗИИ НАСИМИ

**_Гейдарова Хадижа Исабала кызы_**

**_Резюме_**

В статье рассматриваются особенности употребления терминов, связанных с хуруфийской антропологией, в поэзии Имадеддина Насими. Хуруфизм, возникший в XIV веке и основанный Фазлуллой Наими, представляет собой эзотерическое и философское учение, опирающееся на толкование аятов Корана, Вселенной и человеческого тела посредством буквенно-числовой системы. В рамках этой концепции человеческое тело воспринимается как проявление божественной мудрости, каждая

DOI:10.30546/gdu.5.2025

часть и линия которого обладает сакральным значением. Поэзия Насими является одной из наиболее ярких иллюстраций данной антропологической модели. В его произведениях анатомическая лексика (голова, лицо, глаза, брови, волосы, губы, зубы, язык, грудь, сердце, руки и ноги и др.) выступает не только в качестве художественных образов, но и как носитель космических и религиозно-метафизических значений. В ходе исследования выявлено 51 анатомический термин, из которых 50% имеют тюркское происхождение, 26% — персидское, 24% — арабское. Лексический, грамматический и этимологический анализ показывает, что в поэтическом языке Насими человеческий организм представлен как микрокосм, тогда как Бог мыслится как макрокосм. Параллели с коранической терминологией превращают тело в метафору «божественной книги». Ассоциации органов с планетами и зодиакальными созвездиями демонстрируют отражение хуруфийской космологии в поэтическом словаре. Таким образом, Насими предстает как поэт, создавший целостную модель «хуруфийского тела», в котором анатомическая лексика выполняет сакрально-символическую функцию.

## TERMS OF HURUFI ANTHROPOLOGY IN NASIMI'S POETRY

***Heydarova Khadija Isabala qizi***

***Summary***

This article examines the use of terms related to Hurufi anthropology in the poetry of Imadaddin Nasimi. Hurufism, founded in the fourteenth century by Fazlullah Naimi, is an esoteric-philosophical doctrine that interprets Qur'anic verses, the cosmos, and the human body through a letter–number system. Within this framework, the human body is conceived as a manifestation of divine wisdom, with each organ, line, and feature carrying metaphysical significance. Nasimi's poetry provides one of the most vivid articulations of this anthropological model. Anatomical terms such as head, face, eyes, eyebrows, hair, lips, teeth, tongue, chest, heart, and limbs function not only as poetic imagery but also as vehicles of cosmic and religious meaning. The study identifies 51 anatomical terms in his works, among which 50% are of Turkic origin, 26% Persian, and 24% Arabic. Lexical, grammatical, and etymological analysis demonstrates that in Nasimi's poetic language, the human organism is depicted as a microcosm, while God represents the macrocosm. Qur'anic parallels transform the body into a metaphor of the Divine Book. Furthermore, the association of organs with planets and zodiac signs reflects Hurufi cosmology embedded in poetic discourse. Thus, Nasimi emerges as a poet who constructed, both linguistically and conceptually, the Hurufi body model. His creative lexicon highlights the convergence of anatomy, cosmology, and theology, establishing the body as a central symbol of mystical knowledge.

***Rəyçi: Akademik Mövsüm Ağasoylu***
***Daxil olma tarixi 01 oktyabr 2025-ci il***